# Mən hovuzun başında ikən sizlərdən yanıma gələni gözləyəcəyəm, lakin bəzi insanlar məndən uzaqlaşdırılacaqlar və mən :"Ya Rəbbi, onlar məndən, mənim ümmətimdəndirlər

Əsma bint Əbu Bəkrdən (Allah onların ikisindən də razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Mən hovuzun başında ikən sizlərdən yanıma gələni gözləyəcəyəm, lakin bəzi insanlar məndən uzaqlaşdırılacaqlar və mən :"Ya Rəbbi, onlar məndən, mənim ümmətimdəndirlər"- deyəcəm, "Səndən sonra onların nə etdiyini bilirsənmi? -deyiləcək. Allaha and olsun ki, onlar haqdan dönüb geriyə üz tutdular". -deyiləcək.
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Qiyamət günü ümmətindən hovuza gələnləri görmək üçün hovuzun başında olacaq. Bəzi kəslərə ona (Allahın salavatı və salamı onun üzərinə olsun) yaxınlaşmağa mane olunacaq və Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) deyəcək:" Ey Rəbbim, onlar məndəndir, ümmətimdəndir." Ona deyiləcək: Onların arasından ayrıldıqdan sonra nələr etdiklərini bilirsənmi? Allaha and olsun ki, onlar haqdan dönüb geriyə üz tutdular, dinlərindən döndülər, onlar nə səndən, nə də ümmətindəndirlər.

https://sunnah.global/hadeeth/az/show/65031